QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Erkən dil təhsili: üstünlük, yoxsa lazımsız tələskənlik?



8

№ 006 (7416)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

23 yanvar 2026-cı il.
Qiymәti 1 manat

# Sülh Şurası



2

# Davosda sülh gündəliyinin təsdiqi




3

## ƏL YAZISI: onu da arxivə göndərdik...



6

## Biz artıq buna reaksiya vermirik!



4

## Süni intellekt xərçəngi "gördü": texnologiya həkimi əvəz edir, yoxsa tamamlayır?



4

## Maarifçiliyinin beşiyi



7

## Evliliklər azalır – səbəb işsizlik, evsizlik və internet asılılığı..



6

*Dünyanın ölkələri arasında ABŞ prezidenti Donald Trampın yaratdığı Sülh Şurası barədə fikirlər birmənalı deyil. Xüsusən də Avropada bu fikrin əlehdarları daha çoxdur. "Qoca qitə"nin təmsilçiləri 80 il əvvəl yaratdıqları BMT-nin tarixə qovuşmasından bir o qədər də məmnun deyillər. Bu da təsadüfi deyil, avropalılar uzun illər yaradılmaç nizamdan hələ usanmadıqlarını, dolayısı ilə bu tərtibin onları razı saldığını büruzə verirlər. Üstəlik Trampın Siyasi Şuraya daimi üzv olmaq istəyən dövlətlərə şərt qoyması Avropa dövlətlərinin maraqlarına zidd kimi təqdim olunur.*




# Sülh Şurası

## *BMT-yə alternativ, yoxsa?*

Maraqlıdır, yeni yaranacaq qurum həqiqətən Birləşmiş Millətlər Təşkilatına alternativ kimi görünür. Bloomberg mənbələrə istinadən bildirib ki, Ağ Ev Sülh Şurasında daimi üzvlük istəyən ölkələrin hər birindən 1 milyard dollar ianə tələb edir. Təşkilatın nizamnamə layihəsində Trampın şuraya sədrlik edəcəyi, üzvlərinə nəzarət edəcəyi və bütün qərarları təsdiqləyəcəyi nəzərdə tutulur. Tramp Davosda, Dünya İqtisadi Forumunda Sülh Şurası haqqında çıxış etməyi planlaşdırır. Sülh Şurası "məqsədi mun Yaxın Şərqdə sülhü möhkəmləndirmək, eyni zamanda, qlobal münaqişələrin həllinə töhfə vermək baxımından önəmi qeyd edilib. Sülh Şurasına təsisçi üzv dövlət qismində Azərbaycanın dəvət olunması Azərbaycan-ABŞ strateji tərəfdaşlığının və ölkəmizin dünyada sülhün təşviqində oynadığı rolun təcəssümü kimi qiymətləndirilib.

Söhbət əsnasında dövlət başçıları ikitərəfli əlaqələrimizin perspektivləri ilə bağlı fikir mübadiləsi apardılar, müxtəlif səviyyəli qarşılıqlı səfərlərin və təmasların münasibətlərimizin dərinləşdirilməsində rolunu qeyd ediblər.

Tramp Argentina və Kanadanı, eləcə də bir neçə Avropa ölkəsini Qəzza Sülh Şurasına (ümumi Sülh Şurasının "çətiri altında" ayrı bir qrup) qoşulmağa dəvət edib. Bloomberg-dəki anonim mənbəyə görə, Tramp maliyyə yardımlarını əsasən Qəzza zolağının yenidən qurulması üçün istifadə etmək istəyir. Təşkilatın icraçı şurasına ABŞ dövlət katibi Marko Rubio, Trampın xüsusi elçisi Stiv Vitkoff, Trampın kürəkəni Cared Kuşner və Böyük Britaniyanın keçmiş baş naziri Toni Bleyrin daxil olması gözlənilir - bu, üzvlərin tam siyahısı deyil.

18 yanvarda Macarıstanın Baş naziri Viktor Orban Qəzza Sülh Şurasına qoşulmaq üçün dəvəti qəbul edib. Kremlin məlumatına görə, Rusiya lideri Vladimir Putin də diplomatik kanallar vasitəsilə Qəzza Sülh Şurasına qoşulmaq üçün dəvət alıb. Hətta Lukaşenko belə bir Qəzza Şurasına qoşulmaq üçün dəvət alıb.






sabitliyi təşviq etmək, sağlam və qanuni idarəetməni bərpa etmək və münaqişənin davam etdiyi və ya təhdid edildiyi bölgələrdə davamlı sülhü təmin etmək olan beynəlxalq təşkilat" kimi təsvir olunur.

Milyard dollarlıq ianə olmadan Sülh Şurasına üzvlük yalnız üç il davam edəcək və "sədrin qərarı ilə yenilənmə ehtimalı ilə". Donald Tramp sədrliyi öz üzərinə götürəcək və Sülh Şurasına kimin dəvət olunacağına qərar verəcək. Bu təşkilatda qərarlar səs çoxluğu ilə qəbul edilməlidir və hər bir üzv dövlət bir səsə malikdir. Lakin bu ümumi qərarın qəti olması üçün sədrin, yəni Trampın təsdiqi tələb olunacaq. O, həmçinin iclasların gündəliyini təsdiqləyəcək. Bundan əlavə, Tramp istənilən üzv dövləti xaric etmək səlahiyyətinə malik olacaq, digərləri isə onun qərarını üçdə iki səs çoxluğu ilə bloklaya bilərlər. Trampdan başlayaraq sədrin varisi onun tərəfindən seçiləcək.

Sülh Şurasının ildə ən azı bir dəfə müntəzəm olaraq görüşməsi gözlənilir və sədrin qərarı ilə əlavə iclaslar təyin edilə bilər. Bundan əlavə, Sülh Şurasının icra heyəti ilə səsvermə olmadan müntəzəm iclasları rübdə ən azı bir dəfə planlaşdırılır. Təşkilatın nizamnaməsi və təsis sənədlərinin ilk üç dövlətin qoşulmasından sonra təsdiqlənməsi təklif olunur ki, bunlardan birincisi açıq-aydın ABŞ-dır.

Tənqidçilər Trampın yaratdığı təşkilatın ABŞ prezidentinin uzun müddətdir ki, qeyri-funksional adlandırdığı BMT-nin "rəqibinə" çevriləcəyindən narahatdırlar. Layihədə Trampın maliyyə töhfələrinin hara və necə xərcləndiyinə təkbaşına nəzarət etmək niyyətində olduğu və bunun potensial üzv ölkələrin müqaviməti ilə qarşılaşacağı gözlənilir. Bəzi dəvət olunmuş ölkələrin təklif olunan nizamnamə layihəsini artıq tənqid etdiyi bildirilir.

### Kimlər dəvət olunub?

Yanvarın 22-də Davosda "Sülh Şurasının Nizamnaməsi" ("Board of Peace Charter") sənədinin imzalanma mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib. Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, tədbirdə iştirak edən digər dövlət və hökumət başçıları "Sülh Şurasının Nizamnaməsi" ("Board of Peace Charter") sənədini imzalayıblar.

ABŞ Prezidenti Donald Tramp Davosda "Sülh Şurasının Nizamnaməsi" sənədinin imzalanma mərasimində çıxış edərək İsraildə girovların geri qaytarılmasından və Qəzzanın yenidən qurulması ilə bağlı planlarından danışıb. Tramp bildirib ki, bu proses çətin işdir və HƏMAS-dan sonuncu girovun cəsədinin qaytarılmasını tələb edib. O, Qəzzanın gözəl şəkildə yenidən qurulacağını və bu prosesdə çox uğurlu olacağını deyib. "Biz demək olar ki, istədiyimiz hər şeyi edə bilərik", - deyə Tramp bildirib, lakin dərhal əlavə edib ki, bunu BMT ilə birgə həyata keçirəcək.

"BMT-nin böyük potensialı var, amma ondan istifadə etmir", – deyə Tramp vurğulayıb. ABŞ Prezidentinin sözlərinə görə, o, sona çatdırdığı iddia etdiyi səkkiz müharibənin heç biri barədə BMT ilə danışmayıb. Donald Tramp əlavə edib ki, BMT kifayət qədər səy göstərməyib və həmin müharibələri bitirə bilməyib.

Qeyd edək ki, Davosda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp arasında görüş keçirilib. Bu barədə Prezidentin Mətbuat Xidmətinə istinadən xəbər verib.

Görüşdə Donald Trampın yenidən hakimiyyətə gəlməsindən sonra ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin inkişafından məmnunluq ifadə olunub. Ötən il avqustun 8-də Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması ilə bağlı razılaşmaların əldə edilməsində Prezident Donald Trampın tarixi rolu vurğulanıb.

Dövlətimizin başçısı Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində atılan addımlara toxunub. Artıq regionda sülhün mövcud olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev bunun iki ölkə arasında ticarət münasibətlərinin yaranmasında da özünü göstərdiyini bildirib. Bu xüsusda Azərbaycandan Ermənistana neft məhsullarının ixracını, həmçinin idxal edilən taxılın ölkəmiz vasitəsilə Ermənistana çatdırıldığını vurğulayıb.

Dövlətimizin başçısı Zəngəzur dəhlizinin, o cümlədən TRIPP layihəsinin regional bağlantılar baxımından mühüm rol oynadığını qeyd edib. Söhbət zamanı ABŞ Prezidentinin sədrliyi ilə yaradılan Sülh Şurasının əhəmiyyətinə toxunulub, bu quru-

### Makron buna qarşıdırmı?

Bloomberg Fransa liderinə yaxın bir mənbəyə istinadən xəbər verir ki, Fransa prezidenti Emmanuel Makron ABŞ prezidenti Donald Trampın yaratdığı Sülh Şurasına qoşulmaq üçün dəvətini qəbul etməyəcək. Mənbənin məlumatına görə, Makronun Trampın Fransanı yaratdığı Sülh Şurasına qoşulmaq üçün dəvətini qəbul etmək planı yoxdur. Makronun sözlərinə görə, təşkilatın nizamnaməsi Qəzza məsələsindən kənara çıxır və BMT prinsiplərinə və institutlarına hörmətlə bağlı narahatlıqlar doğurur.

Almaniya da ABŞ prezidentindən yaratdığı Sülh Şurasına qoşulmaq üçün dəvət alan ölkələr arasındadır. Almaniya hökumətinin sözçüsü Stefan Kornelius qeyd edib ki, kansler Fridrix Merz Almaniyanı Donald Tramp tərəfindən yaradılan Sülh Şurasına qoşulmaq üçün dəvət alıb və hökumət dəvətə görə ABŞ-a təşəkkür edib. Onun sözlərinə görə, hələlik heç bir qərar verilməyib; hökumət dəvətə cavab vermək üçün tərəfdaşları ilə məsləhətləşmələr aparmağı planlaşdırır. "Əsas məqsədimizə - Qəzzada davamlı sülhün təmin edilməsinə nail olmağın ən yaxşı yolu üzərində koordinasiya edəcəyik... Biz dünyada sülhün təmin edilməsi məqsədini bölüşürük və bunu necə birlikdə edə biləcəyimizi ABŞ və tərəfdaşlarımızla müzakirə etməyə hazırıq", Stefan Kornelius qeyd edib.

**V.VƏLİYEV**

ANALİZ

# Davosda sülh gündəliyinin təsdiqi




***Bu gün Azərbaycan uğurla inkişaf edir. Hər bir sahədə müsbət nəticələr, uğurlar müşahidə olunur. Dünyanın əksər ölkələri Azərbaycanla əlaqələr qurmağa, münasibətləri inkişaf etdirməyə can atır. Bu baxımdan ölkəmiz dünyanın ən aparıcı, nüfuzlu dövlətlərdən hesab olunur. Prezident İlham Əliyevin beynəlxalq tədbirlərdə, konfranslarda hər bir çıxışı beynəlxalq ictimaiyyətin, aparıcı media orqanlarının diqqət çəkdikləri əsas məsələlərdən olur.***

Yanvarın 20-də Davos Ümumdünya İqtisadi Forumunun illik toplantısı çərçivəsində ”Avrasiyanın iqtisadi özünəməxsusluğunun müəyyənləşdirilməsi” mövzusunda panel iclasda aparıcının əsasən Prezident İlham Əliyevlə müzakirələr qurması, Onun fikirlərinə daha çox yer verməsi beynəlxalq ictimaiyyətin ölkəmizin liderinin fikirlərinə böyük maraq göstərdiyini nümayiş etdirdi.

Moderatorun “Hazırda Siz gələcəyi necə görürsünüz? Gələcəkdə bizi nə gözləyir?” sualına Prezident İlham Əliyev müdrik cavab verdi: “Ötən ilin avqustunda hər iki tərəf sülh sazişini paraflamaqla və beləliklə, üç onillikdən artıq çəkən müharibə və qantökməyə son qoymaqla tarixi nailiyyət əldə etdi. Həmin sülh sazişinin əhəmiyyəti ondan ibarətdir ki, o, son qanlı toqquşmadan sonra iki ildən az müddətdə paraflandı. Beləliklə, bu göstərir ki, əgər hər iki tərəfin güclü siyasi iradəsi, sülhə sadiqliyi olarsa, onda siz kifayət qədər qısa müddət ərzində barışıq əldə edə bilərsiniz. Paraflanmış sənəd bu gün praktiki nəticələrə çevrilir. Biz sülh şəraitində nəinki cəmi 5-6 aydır yaşayırıq və bu vəziyyətdən yararlanırıq, o cümlədən nə Ermənistan, nə Azərbaycan müstəqil ölkələr kimi heç zaman sülhdə yaşamayıblar. 1991-ci ildə müstəqil ölkəyə çevrildiyimiz zaman biz artıq hərbi toqquşmada idik. Lakin bu gün sülhün faydası əməkdaşlığın başlanmasında əks olunur. Olduqca mühüm neft məhsullarının birinci hissəsi Azərbaycandan Ermənistana göndərildi və bu, qiymətlərin aşağı düşməsinə imkan yaratdı”.

## “Cənab Prezident İlham Əliyevə minnətdaram, görülən işləri təqdir edirik”

Prezident İlham Əliyev onu da qeyd etdi ki, iki və ya üç il əvvəl belə addımı tamamilə təsəvvür etmək olmazdı: “Lakin bu gün o, artıq reallıqdır. Düşünürəm ki, heç nə bu prosesə müdaxilə edə bilməz. Fikrimcə, əlavə görəcəyimiz işlər ondan ibarətdir ki, hər iki tərəf sülhdə yaşamağın nəticələrini göstərməlidir ki, biz də bu proses çərçivəsində cəmiyyətlərimizin tam dəstəyinin şahidi ola bilək. Lakin mən çox nikbin baxıram, çünki əldə olunan nəticə, həqiqətən, Ermənistanın, Azərbaycanın və Cənubi Qafqazın xeyrinədir. O, vaxtilə çox dərin ədavəti olmuş ölkələrin əməkdaşlıq mərhələsinə gəlib çıxmasının nümunəsini özündə əks etdirir”.

Ermənistan Respublikasının Prezidenti Vaaqn Xaçaturyan Azərbaycan Prezidenti İlham Əliyevin ”gələcək bizdən asılıdır” fikri ilə tam razı olduğunu söyləyib: “Cənab Prezident İlham Əliyevin söylədiyi kimi, biz siyasi qətiyyəti sülh üçün nümayiş etdirdik ki, artıq bundan sonra əməli tədbirlər sülhü sübut etsin, təsdiq etsin. Biz 30 ildir bunu görməmişdik. Amma indi isə biz sülh və əmin-amanlıq şəraitində yaşayırıq. Bu isə həqiqətən də inanılmaz hadisədir”.

Vaaqn Xaçaturyan Azərbaycandan Ermənistana Gürcüstan ərazisi ilə malların nəql edildiyini bildirdi. Qeyd etdi ki, bu yüklərin birbaşa olaraq iki ölkənin ərazisindən keçəcəyinə əmindir: “Cənab Prezident İlham Əliyevə minnətdaram, görülən işləri təqdir edirik. Bu gün və yaxud dünən idi səhv etmirəmsə, Prezident Əliyev qeyd etdi ki, biz sülh və əmin-amanlıq şəraitində yaşamağı öyrənməliyik. İnandırım ki, bizim üçün adi vəziyyət deyil, çünki bu sənədlər imzalanmamışdan əvvəl buna öyrəşməmişdik. Hər gün oyanırdıq ki, sərhəddə görəsən nələr baş verib, atışmalar davam edirmi? Bu, bizim üçün hər zaman stres idi. İndi isə mən sizi bir daha əmin etmək istəyirəm ki, biz bu keçmişimizi unudub, gərək artıq konkret layihələr həyata keçirək. Biz uğur qazanacağıq, inanırıq”.

## Sülh müqaviləsinin imzalanacağına əminlik var

V.Xaçaturyan iki ölkə arasında sülhün olacağına əminliyini bildirib: “Azərbaycan Prezidenti cənab Əliyevə təşəkkür edirəm və bizim Baş nazirimizə də təşəkkürümü bildirməliyəm. Hər iki rəhbərə nümayiş etdirdikləri siyasi iradəyə görə minnətdaram”.

Moderatorun parçalanan və həssas qlobal mənzərədə Avrasiyanı necə görürsünüz? Sualına isə Prezident Əliyev belə cavab verib: “Avrasiya çox böyük bir coğrafi məkandır. Biz öz regionumuzu, bilavasitə qonşularımızı düşünürük. Şadam ki, müstəqillik illərində biz bütün qonşularımızla çox yaxın işgüzar münasibətlər qura bilmişik. Burada istisna Ermənistandır və bunun səbəbləri hər kəsə məlumdur. Lakin de-fakto sülh bərqərar olduğu üçün biz iqtisadi əməkdaşlığa və ixrac əməliyyatlarına başlamışıq. Azərbaycan Qazaxıstandan və Rusiyadan Ermənistana yüklərin daşınması ilə bağlı bütün məhdudiyyətləri aradan qaldırıb. Bizə artıq Ermənistandan Rusiyaya yüklərin nəql edilməsi ilə bağlı müraciət daxil olub. Yəni biz de-fakto birtərəfli qaydada dəhlizləri açdıq. Bəli, bu gün bu daşımalar Gürcüstan vasitəsilə həyata keçirilir. Ancaq bir gün bu, Ermənistan ərazisindən həyata keçiriləcək. Bir gün Ermənistana məxsus yüklər birbaşa Azərbaycan vasitəsilə daşınacaq və həmin gün çox da uzaqda deyil.”

Prezident İlham Əliyev o fikri xüsusi olaraq vurğulayıb ki, qardaş ölkə olan Türkiyə ilə çox sıx müttəfiqlik münasibətləri qurmuşuq, Türkiyəyə nəhəng sərmayələr yatırmışıq: “Bizim Türkiyəyə sərmayələrimizin həcmi 20 milyard dollardan çoxdur. Hazırda biz Gürcüstana ən böyük sərmayə qoymuş ölkələr sırasındayıq. Gürcüstan ərazisindən keçən dəhlizlərlə yanaşı, Amerika Birləşmiş Ştatlarının himayəsi altında həyata keçirilən və TRIPP adlanan bağlantı layihəsi Xəzər dənizindən keçərək Asiyadan Azərbaycana, Ermənistana, Azərbaycanın bir parçası olan Naxçıvandan Türkiyəyə, oradan isə Avropaya qədər uzanan yeni bir nəqliyyat dəhlizi olacaqdır. Marşrutların çoxluğu istehlakçıların, təchizatçıların və tranzit ölkələrin xeyrinədir”. Bütün bunlar bir daha onu təsdiq edir ki, əsas qoyulan siyasət Azərbaycana böyük uğurlar, nailiyyətlər gətirir. Bu uğurların davamlı olacağı isə şübhəsizdir.

***İlham ƏLİYEV***



# YAP Veteranlar Şurasının iclası keçirilib

Yanvarın 22-də Yeni Azərbaycan Partiyasının (YAP) Veteranlar Şurasının iclası keçirilib. YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə gündəlikdə duran məsələlər haqqında məlumat verərək Şuranın 2025-ci ildə də öz fəaliyyətini partiyanın Proqram və Nizamnaməsi çərçivəsində, müvafiq Tədbirlər Planına uyğun şəkildə davam etdirdiyini vurğulayıb.

Görülən işlərdən bəhs edən Arif Rəhimzadə 2026-cı ilin Tədbirlər Planında nəzərdə tutulan məsələlərə nəzər yetirərək ideoloji işin, o cümlədən gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi - milli şüurun gücləndirilməsinin diqqət mərkəzində olacağını vurğulayıb.

İclasda YAP Veteranlar Şurasının sədr müavini Sədaqət Qəhrəmanova, Şuranın üzvləri Tahir Rzayev, Elbay Qasımzadə, Zərifə Quliyeva, Adilə Abasova, Əli Həsənov, Tahir Quliyev, Vahid Novruzov, Urxan Ələkbərov, Xeyrəddin Qoca, Nazim İsmayılov, Fidumə Hüseynova, Arif Qaraşov və Zahid Xəlilov çıxış edərək müzakirə olunan məsələlərə münasibət bildiriblər. YAP Veteranlar Şurasının fəaliyyətinə dair ötən ilin yekunları qənaətbəxş qiymətləndirilib. 2026-cı ilin Tədbirlər Planı ilə bağlı müxtəlif təkliflər səsləndirilib və yekunda müvafiq qərar qəbul olunub.

# Yeni Azərbaycan Partiyasının nümayəndələri Şəhidlər Xiyabanını ziyarət ediblər

20 Yanvar faciəsinin 36-cı ildönümü ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndələri yanvarın 20-də - Ümumxalq Hüzn Günündə Şəhidlər Xiyabanını ziyarət ediblər. YAP nümayəndələri Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizədə canlarını qurban vermiş qəhrəman Vətən övladlarının əziz xatirəsini ehtiramla yad edib, məzarları üzərinə tər güllər düzüblər. “Əbədi məşəl” abidəsinin önünə əklil qoyulub.



Partiya nümayəndələri tərəfindən “Türk şəhidliyi” abidəsi də ziyarət olunub, abidənin önünə gül dəstələri qoyularaq Azərbaycanın istiqlaliyyəti uğrunda canlarından keçmiş türk qardaşlarımızın xatirəsi ehtiramla anılıb.



# Süni intellekt xərçəngi “gördü”: texnologiya həkimi əvəz edir, yoxsa tamamlayır?



***Süni intellekt artıq sadəcə texnoloji yenilik deyil, insan həyatına birbaşa təsir göstərən real gücə çevrilib. Xüsusilə tibb sahəsində onun tətbiqi son illərdə sürətlə artıb. Dəri xəstəliklərinə, o cümlədən xərçəngə diaqnoz qoya bilən süni intellekt sistemlərinin ortaya çıxması cəmiyyətdə həm ümid, həm də narahatlıq yaradıb. Bir tərəfdən bu texnologiya minlərlə insanın həyatını xilas edə bilər, digər tərəfdən isə “insan faktorunun” arxa plana keçməsi ciddi suallar doğurur. Əsas məsələ budur: süni intellekt bu qədər inkişaf edibsə, bu inkişaf nə dərəcədə təhlükəsiz və idarəolunandır? SİA mövzu ilə bağlı araşdırma edib.***



## Süni intellekt tibbdə nəyi dəyişir?

Ənənəvi tibbdə diaqnoz həkimin təcrübəsi, biliyi və müşahidə qabiliyyətinə əsaslanırdı. Süni intellekt isə milyonlarla tibbi məlumatı saniyələr ərzində analiz edə bilir. Xüsusilə dəri xərçəngi kimi vizual əsaslı xəstəliklərdə alqoritmlər:

- Dərinin rəng dəyişimini
- Ləkələrin simmetriyasını
- Ölçü və forma fərqlərini
- Zamanla baş verən dəyişiklikləri dəqiq müqayisə edərək risk ehtimalını hesablayır. Bu isə insan gözünün görə bilmədiyi mikrosəviyyəli detalları üzə çıxarır.

**Müsbət təsirlər: insan həyatı üçün real şans**

Süni intellektin tibbdə tətbiqi bir neçə mühüm istiqamətdə ciddi üstünlüklər yaradır:

**Erkən diaqnostika**

Xərçəngin erkən mərhələdə aşkarlanması müalicənin effektivliyini dəfələrlə artırır. Statistikaya görə, dəri xərçəngi erkən mərhələdə aşkarlandıqda sağ qalma ehtimalı 90 faizdən yuxarıdır.

## Tibbi bərabərliyin artması

Regionlarda həkim çatışmazlığı problemi olan ölkələr üçün süni intellekt ilkin diaqnostika vasitəsi kimi böyük imkan yaradır. Bu, səhiyyə xidmətlərinə çıxışı məhdud olan insanlar üçün həyati əhəmiyyət daşıyır.

**Həkimin yükünün azalması**

Süni intellekt rutin analizləri üzərinə götürərək həkimlərin daha mürəkkəb qərarlara fokuslanmasına imkan verir.

**Diaqnostik səhvlərin azalması**

İnsan faktoru – yorğunluq, stres, diqqət dağınıqlığı – minimuma enir.

Risklər: texnologiyanın görünməyən tərəfi

Bütün bu üstünlüklərə baxmayaraq, süni intellektin tibbdə həddindən artıq rolu ciddi risklər yarada bilər.

**Yanlış öyrədilmiş alqoritmlər**

Əgər süni intellekt natamam və ya birtərəfli məlumat bazası ilə öyrədilibsə, o, müəyyən etnik qruplar, yaş kateqoriyaları və ya nadir xəstəliklər üzrə səhv nəticələr verə bilər.

## Psixoloji təsir

Yanlış və ya erkən diaqnoz insanlarda panika, stress və psixoloji travma yarada bilər. Xüsusilə “xərçəng” kimi ağır diaqnozlarda bu risk daha yüksəkdir.

## Həkimin rolunun zəifləməsi təhlükəsi

Əgər süni intellekt əsas qərarverici mexanizmə çevrilərsə, tibb insanilikdən uzaqlaşa bilər. Halbuki xəstə üçün empatiya, izah və insan münasibəti bəzən müalicə qədər vacibdir.

Etik və hüquqi boşluqlar

Süni intellektin səhv diaqnoz verdiyi halda məsuliyyət məsələsi hələ də açıq qalır:

-Proqramı hazırlayan şirkətmi?

-Sistemdən istifadə edən tibb müəssisəsimi?

-Yoxsa nəticəni təsdiqləyən həkimmi?

Bir çox ölkələr bu suala hələ də aydın cavab tapa bilməyib. Bu isə hüquqi riskləri artırır.

Dünya təcrübəsi və yanaşma

İnkişaf etmiş ölkələrdə süni intellekt həkimi əvəz edən deyil, onu tamamlayan alət kimi qəbul olunur. ABŞ və Avropa İttifaqında bu sistemlər klinik istifadəyə buraxılmazdan əvvəl illərlə sınaqdan keçirilir və ciddi sertifikatlaşdırma prosesindən keçir. Ən vacib prinsip isə budur: son qərar mütləq həkimə məxsusdur.

## Nəticə: təhlükə yox, fürsət — amma şərtlə

Süni intellektin dəri xəstəliklərinə və xərçəngə diaqnoz qoya bilməsi texnologiyanın insan həyatına verdiyi ən böyük töhfələrdən biridir. Bu inkişaf ümumilikdə müsbətdir, lakin nəzarətsiz şəkildə tətbiq olunarsa, təhlükəyə çevrilə bilər.

Ən doğru model – texnologiya + insan ağlı + etik çərçivə birliyidir. Süni intellekt həkimin yerini tutmamalı, onun əlində güclü və təhlükəsiz bir alətə çevrilməlidir. Yalnız bu halda texnologiya insan həyatını riskə yox, xilas etməyə xidmət edər.

*Ayşən Vəli*

ARAŞDIRMA



Mətanət Məmmədova

# Biz artıq buna reaksiya vermirik!

***Bu fikri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də Davosda “Euronews” televiziyasına verdiyi müsahibə zamanı jurnalistin “Azərbaycanın Avropa Parlamenti tərəfindən daimi tənqidinə münasibətiniz və reaksiyanız necədir” sualına cavab olaraq bildirib. Və bu fikrə jurnalistin münasibəti də maraq doğuracaq dərəcədə olub: olduqca diplomatik cavabdır.***

Dövlətimizin başçısı: Bəli, biz reaksiya verməyi dayandırmışıq. Keçmişdə biz reaksiya verirdik. Aydındır ki, Azərbaycana qarşı olan bu qərəzli vəziyyət Azərbaycanın müstəqil siyasətini həzm edə bilməyən xüsusi lobbiçilik qruplarının, xüsusi qüvvələrin fəaliyyətinin nəticəsidir.

Artıq uzun illərdir ki, biz Avropa Parlamenti və Avropa Şurasının Parlament Assambleyası ilə istənilən əməkdaşlığı dayandırmışıq. Biz Avropa Komissiyası ilə əməkdaşlıq edirik və bununla kifayətlənirik.

Düşünürəm ki, Ermənistanın özünün Azərbaycanla əlaqələri yüksək qiymətləndirdiyi bir vaxtda, bizi heç vaxt etmədiyimizdə, o cümlədən Ermənistana qarşı “təcavüzkar mövqedə” olmağımızda ittiham etməklə Avropa Parlamenti özünü çox qəribə vəziyyətə salır.

Ötən ilin avqustunda Ağ Evdə Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi paraflandı. Mən ümid edirəm ki, Avropa Parlamentinin üzvləri özlərində cəsarət taparaq Azərbaycana qarşı ədalətsiz mövqelərini yenidən nəzərdən keçirəcəklər.

Dövlət başçısının bu qısa və cəsarətli cavabı hər bir azərbaycanlının ürəyincə oldu. Çünki xalqın 30 ildə qarşılaşdığı ədalətsizliklərə göz yuman bir qurum haqqında söylənən fikirlər ümumilikdə xalqın gəldiyi qənaətdir.

Hər birimiz şahidik ki, 30 il ərzində Azərbaycanın Ermənistana qarşı təcavüzkar obrazı yaradıldı. Avropa Parlamenti nə Azərbaycan həqiqətlərinə inandı, nə də dövlətimizin başçısının çoxsaylı cəhdləri, analizləri qarşısında inanmağa çalışdı. Bu qurumun gözünü Ermənistan necə, hansı vasitə ilə bağladısa, yalnız Ermənistan, onun hüquq və azadlığı, onun vətəndaşlarının ədaləti, haqqı deyərək 30 il ərzində onların yanında oldu. Bu gün də onlarladır.

44 günlük müharibə, müharibədən 3 il sonra, 2023-cü ilin sentyabrında Xankəndidə birgünlük lokal xarakterli antiterror əməliyyatı zamanı görünən Azərbaycan humanizmi və ədaləti də bu qurumun Ermənistan sevdasına əsla təsir edə bilmədi. Bütün dünya Azərbaycanın müharibə meydanında gücünü gördü, Azərbaycandan söhbət açdı, Azərbaycanın haqlı olduğuna şahid oldu, lakin Avropa Parlamenti hələ də öz iddialarında qaldı.

2020-ci ildə Böyük Zəfərdən sonra, noyabrın 10-da ağ bayraq qaldıraraq təslim olduqlarını bildirən ermənilərə Laçın, Kəlbəcər və Ağdamı tərk etmələri üçün verilən vaxtla, 2023-cü ildə Xankəndi, Xocalı, Xovavənd və Ağdərənin düşməndən alınmasından sonra bu ərazilərimizdə vaxtilə yerləşdirilən ermənilərin burada müəyyən hüquq çərçivəsində yaşaya biləcəyini bəyan etməklə dövlətimizin humanistliyinə dünya şahid oldu.

Lakin bütün bu hadisələrin fonunda ədalətin kimin tərəfində olduğunu yenə də Avropa Parlamenti müəyyən etmək istəmədi. Müharibədən sonra dünyanın müxtəlif ölkələrindən Qarabağa və Şərqi Zəngəzura səfər edən nümayəndə heyətləri ermənilərin Azərbaycan torpaqlarına tutduğu divanı görsələr də, daşı daş üstündə qalmayan şəhər və kəndlərimizin fotolarını çəkib paylaşsalar da, ekoloji talançılığı öz gözləri ilə görüb dünya mediasında işıqlandırsalar da, lakin təəssüf ki, Avropa Parlamenti təcavüzkarın kim olduğuna bu dəfə də qərar verə bilmədi.

Dövlətimizin başçısının Davosda jurnalistin Avropa Parlamenti ilə bağlı sualına qısaca olaraq “Biz artıq buna reaksiya vermirik” söyləməsi bu qurumun ədalətsiz fəaliyyətinə ümumilikdə 30 illik bir baxışla lakonik yanaşma oldu. Çünki bu quruma qarşı dövlətimizin rəhbərinin hörmət, sayğı nümayiş etdirməsinin, onları ədalətə çağırmasının, buna ümid etməsinin isə illər şahidi olmuşuq. Bütün bunlara baxmayaraq Azərbaycan həqiqətlərinə inanmaq istəməyən bir qurum yalnız bunu haqq edir: Biz artıq buna reaksiya vermirik!

# “Təhsilin əlçatanlığının təmin olunması vacibdir”



***“Artıq təhsil haqqında qanunda qeyd olunan istiqamətdə dəyişikliklər nəzərdə tutulub və hesab edirəm ki, təhsil haqqında qanunda təklif olunan bu dəyişiklik sosial ədalət və təhsilin inkulizivliyini artırmaq istiqamətində atılan strateşik addımdır. Bu islahatların həm təsirlərini, həm də hüquqi əhəmiyyətli bir neçə aspektlər vurğulamaq istəyirəm. İlk öncə təhsilin əlçatanlığının təmin olunması və təhsil imkanlarının genişləndirilməsi vacibdir". Bu sözləri SİA -ya açıqlamasında Doktorant və Magistrlər Cəmiyyətinin sədri, fəlsəfə doktoru İlqar Orucov bildirib.***

Onun sözlərinə görə, burada maliyyələ maneələrinin aradan qaldırılmasına xüsusilə toxunmalıyıq: ”Hesab edirəm sosial müdafiəyə ehtiyacı olan şəxslər, burada əlilliyi olan şəxslərdir, şəhid ailəsi üzvləridir, valideyn məhrum olan şəxsləri aid etmək olar. Burada təhsil haqqının çox olması, ali təhsilə keçən yolda əsas maneə hesab olunurdu. Bu dəyişiklik təhsilin ödənişsiz və yaxud ödənişli olmasından asılı olmayaraq yalnız bilik və bacarıqlarına görə rəqabət aparmasına şərait yaradacaq. Çünki əsas hədəfdə xüsusi ehtiyacı olan şəxslərin əmək bazarına inteqrasiyası məsələsi dayanıb. Bu da təbii ki, həmin şəxslərin keyfiyyətli təhsil almasından keçir. Və dövlət bu dəstəyi məhz sosial müdafiəyə xüsusi ehtiyacı olan qrupdan olan gənclərin ixtisaslı kadr kimi formalaşmasını şərtləndirəcək. Təhsil sistemində də bunun, sosial təsirləri vardır. Lakin təhsil haqqının dövlət tərəfindən ödənilməsi əslində, bu, heç də ödənişsiz təhsil almaq anlamına gəlmir. Çünki, bu ödənişi sadəcə olaraq universitetə dövlət ödəyəcəkdir. Dövləti bu ödənişləri qarşılaması ali təhsil müəssisələrinin büdcəsinə birbaşa vəsait daxil olmağını təmin edəcək. Bu, universitetlərin infrastrukturunun yenilənməsi, inkuliziv mühiti, təkmilləşməsi və başqa məsələləri özündə əks etdirəcəkdir. Xüsusi qrupda olan fiziki məhdudiyyətli şəxslərin binaya daxil olması, eyni zamanda onlar üçün auditoriyalarda əlavə şəraitlərin yaradılması və s. bunları təbii ki, stimullaşdıra bilər. Burada ən vacib məqamlardan biri ondan ibarətidir ki, sosial qrupların sayı artması, universitet daxilində akademik rəqabətin güclənməsi deməkdir. Bunun çox vacib təsirlərindən biri normativ hüquqi aktların zidiyyətini aradan qaldırılmasından irəli gəlir. Bu dəyişiklik qanunvericilikdə ki, bir neçə boşluğu, həm də o ziddiyyətli məqamları ortadan götürmüş olur. Vahid yanaşma artıq qanunvericilik səviyyəsində həlli tapmış olur. Bu qanuna dəyişiklikəyə qədər olan vəziyyət belədir. Fərqli kateqoriyalardan olan şəxslərin, burada məcburi köçkünlərdir, müharibə veteranlarıdır, əlilliyi olan şəxslərdir bura daxil etmək olar. Təhsil haqqı güzəştləri fərqli fərman və sərəncamlarla tənzimlənirdi. Amma indi bu təhsil haqqında qanuna dəyişiklik edilməsindən sonra bu fundamental dəyişiklik bütün kateqoriyaların vahid qanun çətiri altında toplayaraq hüquqi dayanıqlılığı təmin etmiş olacaq. Və qanun layihəsinə əlavə təhsil, burada ixtisas artırmadır, yenidən hazırlanma istisna edilməsi dövlət vəsaitlərinin daha səmərəli və hədəfli ilk növbədə baza, peşə və ali təhsilə yönəldilməsi təmin edilmiş olacaq.

Bu hüquqi baxımdan bir sualı cavablandırır. Hansı təhsil səviyyəsi dövlət öhdəliyidir. Artıq bu qanunla birmənalı olaraq məsələyə aydınlıq gətirilmiş oluruq. Eyni zamanda bilirik ki, hər kəsin çox vacib məqamdan biri də, Azərbaycan Respublikasının konstitusiyasında dövlət maddi və sosial vəziyyətdə asılı olmayaraq istedadlı şəxslərin təhsilinə zəmanət verir kimi bir maddə var. Məhz qanun çərçivəsində qeyd olunan sosial baxımdan həssas təbəqənin əhatə edən bu dəyişiklik bu konstitusiyanın normalarının icra mexanizmini artıq konkretləşdirmiş olur. Bu dəyişiklik sosial dövlət prinsipini gücləndirir. Çünki Dövlət Başçımız cənab İlham Əliyevin hər zaman gətirdiyi kimi Azərbaycanda həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır və Azərbaycan dövləti sosial dövlətdir. Yəni qayğıya ehtiyacı olan bütün insanların qayğılarını, dövlət qarşılayır və hesab edirəm ki, bu həm də təhsil sistemindəki bu maliyyə diskriminasiyasını minimallaşdırır və hər dəfə ayrı-ayrı sərəncamlarla, qərarlarla həll olunan məsələ artıq qanunvericilik səviyyəsində bu işlək mexanizmə çevrilir”.

***Ziya Hikmətoğlu***

# Davosdan mesajlar: Azərbaycanın regional və qlobal mövqeyi

***Beynəlxalq aləmdə böyük nüfuza malik olan Azərbaycan dünyada etibarlı tərəfdaş imicini qazanıb. Vətən müharibəsində qazandıgı qələbədən sonra Azərbaycanın regionda yaratdığı yeni reallıqlar beynəlxalq birlik tərəfindən qəbul olunur və dəstəklənir. Azərbaycan Prezidenti İlham Əliyevin yanvarın 20-də Davosda “Euronews” televiziyasına verdiyi müsahibə Azərbaycanın bu gün regional və qlobal miqyasda öz sözünü deyən, milli maraqlarını beynəlxalq hüquq çərçivəsində müdafiə edən güclü dövlət, etibarlı tərəfdaş olduğunu bir daha təsdiqləyir.***

Xüsusi olaraq qeyd edək ki, Prezident İlham Əliyevin “Zayed İnsan Qardaşlığı Mükafatı”na layiq görülməsi Azərbaycan dövlətinin sülhə, dialoqa və insan həmrəyliyinə verdiyi töhfənin beynəlxalq səviyyədə yüksək qiymətləndirilməsidir. Birləşmiş Ərəb Əmirliklərinin nüfuzlu Şeyx Zayed Fondunun 2026-cı il üçün “Zayed İnsan Qardaşlığı Mükafatı”nın qalibləri sırasında Prezident İlham Əliyevin yer alması Azərbaycan liderinə olan etimadın, eləcə də, dövlətimizin başçısının sülhə verdiyi töhfələrin əyani sübutudur. Bu mükafat böyük iradənin, ədalətli sülhün əlbəttə ki, təcəssümüdür. Şeyx Zayed Fondunun yaradılmasının əsasında dünyada humanizm, dözümlülük, ətraf mühitin qorunması və xalqlararası sülhün təşviqi dayanır. Məlumdur ki, sözügedən mükafat dünyada sülh, həmrəylik və dinc yanaşı yaşama prinsiplərini təşviq edən şəxslərə və qurumlara verilir. Dövlətimizin başçısının bu mükafata layiq görülməsi həm də Azərbaycan Prezidentinin sülh gündəliyinin dünya tərəfindən təqdiridir. Otuz ildən artıq davam edən münaqişə və qan tökülməsindən sonra Cənubi Qafqazda sülhün bərqərar olması tarixi nailiyyətdir. Bu gün məhz Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan daxilində sabitlik tam təmin olunub. Azərbaycan Prezidenti “Belə nüfuzlu mükafatı almaq mənim üçün böyük şərəfdir. Xüsusən də o, Birləşmiş Ərəb Əmirliklərinin qurucusu, mərhum Şeyx Zayedin adını daşıyır. Mən bu qərarı otuz ildən artıq müddətdə qan tökülməsindən, münaqişə və müharibələrdən sonra Qafqazda sülhün qurulmasında səylərimizə verilən qiymət kimi qəbul edirəm”, - deyə Davosda “Euronews” televiziyasına verdiyi müsahisində bildirib. Dövlətimizin başçısı bizim beşaltı aydır sülh şəraitində yaşadığımızı vurğulayaraq, müstəqillik tariximizdə heç zaman sülh şəraitində yaşamadığımızı qeyd edib.

Bildiyimiz kimi, Azərbaycan dövləti ərazilərini Ermənistanın işğalından azad etdikdən sonra yeni reallıqlar formalaşdırıb. Müasir dünyada mövcud reallığı dəyişəcək güc mövcud deyil. Ölkəmizin mövqeyi milli maraqlarımızı inamla müdafiə edir. Azərbaycan Prezidenti İlham Əliyevin siyasi uzaqgörənliyi, böyük diplomatik bacarığı sayəsində dövlətimiz dünyanın böyük gücləri sirasında ədalətli mövqeyini sərgiləyir və bütün zəruri addımları tam zamanında atır.

Dövlət başçısının müsahibəsində Azərbaycan ilə Ermənistan arasında münasibətlərə diqqət cəkilir. Artıq bu münasibətlər əməkdaşlığa çevrilir. “Biz Ermənistana gedən yüklərin daşınmasında bütün məhdudiyyətləri aradan qaldırdıq”, - deyən Prezident əlavə edib ki, biz Ermənistanın böyük dərəcədə asılı olduğu əsas malların, ilk növbədə neft məhsullarının həmin ölkəyə təchizatına başlamışıq: “Bu vəziyyətdən hamı udur. Beləliklə, düşünürəm ki, Ermənistan və Azərbaycanın, eləcə də vətəndaş cəmiyyətinin birgə səyləri ilə biz Qafqazda uzunmüddətli deyil, əbədi sülhə nail olacağıq.



*İman ABDUYEV, politoloq*

Heç şübhəsiz ki, Azərbaycanın enerji sahəsində oynadığı rol həm regional, həm də qlobal əhəmiyyət daşıyır. Bu gün ölkəmiz Cənubi Qafqazın əsas enerji təminatçısı olmaqla yanaşı, Avropanın enerji təhlükəsizliyində etibarlı tərəfdaşdır. Azərbaycan Cənubi Qafqazın enerji ehtiyatlarına məxsus və digər ölkələrə neft və qaz ixrac edən yeganə ölkədir. Belə ki, uzun illər Gürcüstan, indi isə artıq Ermənistan enerji ehtiyatlarını Azərbaycandan idxal edir. Avropa və Avropa İttifaqı ilə isə enerji əməkdaşlığımız artmaqdadır. Artıq 16 ölkəyə təbii qaz ixrac edir. Onların 10-u Avropa İttifaqının üzvüdür. Bir çox Avropa ölkələri ilə olan münasibətlər enerji təhlükəsizliyini gücləndirmək imkanı yaradır. Prezident İlham Əliyevin Davosdan verdiyi mesajlar bir daha sübut etdi ki, ölkəmiz yeni beynəlxalq reallıqlarda öz yolunu müəyyənləşdirib. Azərbaycan Prezidenti İlham Əliyevin Davosda ”Euronews” telekanalına verdiyi müsahibə ölkənin regional və qlobal mövqeyini əks etdirən mühüm siyasi bəyanat oldu. Dəyişən dünya düzənində Azərbaycan öz yerini müəyyənləşdirib və milli maraqlarını beynəlxalq hüquqa uyğun olaraq müstəqil siyasət yürüdür.

# Çindən idxal olunan avtomobillərin qiymət artımı digər bazar seqmentlərinə necə təsir edir?



***"Son dövrlərdə Çindən idxal olunan avtomobillərin qiymətlərində müşahidə olunan artım avtomobil bazarında bir sıra reaksiyalar yaradıb. Qiymət artımı birbaşa olaraq həmin bazarın digər seqmentlərinə də təsir edir, çünki bazarda avtomobillər arasında əvəzləmə effekti mövcuddur". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı ekspert Emin Qəribli deyib.***

Onun sözlərinə görə, Çin markalı avtomobillərin qiymətləri yüksəldikdə, alıcıların bir qismi alternativ variantlara yönəlir və bu da digər idxal və yerli istehsal avtomobillərinin satış qiymətinə və tələbinə təsir edə bilir: ”Bundan əlavə, qiymət artımı ümumi bazar dinamizminə də təsir göstərir. İdxal maşınlarının qiymətinin yüksəlməsi yerli istehsalın rəqabət qabiliyyətini artırmaqla yanaşı, istehlakçılarda seçim imkanlarını məhdudlaşdırır və bəzi hallarda kredit və sığorta xidmətlərinə olan tələbi də dəyişdirə bilir. Eyni zamanda, avtomobil bazarında qiymət artımı idxal siyasəti və gömrük tarifləri ilə bağlı qərarların nəzərdən keçirilməsinə, habelə valyuta məzənnələri və logistika xərclərinin təhlilinə ehtiyac yaradır. Çindən idxal olunan avtomobillərin qiymət artımı yalnız həmin markaların satışına deyil, bütün avtomobil bazarına, həmçinin istehlakçı davranışına və iqtisadi siyasət strategiyalarına birbaşa və dolayı təsirlər göstərir. Bu tendensiyanın uzunmüddətli nəticələri bazarda rəqabətin strukturunu dəyişə, yerli istehsal və idxal balansına təsir edə və avtomobil sektorunun strateji planlamasında yeni addımların atılmasına səbəb ola bilər”.

***Ziya Hikmətoğlu***

# ƏL YAZISI: onu da arxivə göndərdik...

*Yanvarın 23-ü Dünya Xətt Günü, daha aydın desək, Əl Yazısı Günüdür: yalnız adı qalan, özünü isə tarixin arxivinə göndərdiyimiz əl yazısı...*



Hüsnxət adından da göründüyü kimi, gözəl yazı yazmaq deməkdir. Eləcə də bizim özümüzün də hüsnü əlyazımızda əksini tapır, hüsnxətlə yola çıxdığımız yazı xəttimiz gələcəkdə xarakterimizi, xasiyyətimizi açıqlayır.

Bəli, hər birimiz ibtidai təhsil alırıq, hüsnxət fənnini tədris edən müəllimlər bizə yazmağı öyrədir. Biz də öyrənirik. Necə çətinliklə öyrənirik, bunu da hər kəs yaxşı xatırlayar. Xatırlayar ki, yazmağı öyrənmək üçün çox çətinlik çəkilir. Məktəbdə müəllimlərin, evdə isə valideynlərin köməkliyi ilə yavaş-yavaş buna alışırıq. Nöqtələri birləşdirməklə axır ki, hərfləri yazmağı öyrənirik ki, bir də baxırıq, söz, cümlə yazmışıq. Lakin təəssüflər olsun ki, hazırki təhsil sistemində yuxarı siniflərə qalxdıqca, yazı yazmaq elə ibtidai sinifdə qalır. Nə üçün yazmırıq?

Təhsilimiz kurikulum adlanan yeni təhsil metoduna keçdi-keçmədi, bu metod yazı yazmağı sıradan çıxarmağa başladı. Elə ki, dərsliklərin yanında iş dəftərləri də meydana gəldi, hansı ki, o dəftərləri satın alırıq, bundan sonra yazı yazmaq məsələsi də geriləməyə başladı. Çünki həmin iş dəftərlərində çox qısa şəkildə yazı yazmaq məcburiyyətində qalırıq. Bəzən yalnız "hə", "yox", "bəli", "xeyr". Vəssalam. Əvvəlki təhsil sistemində necə idi? Nə üçün əvvəllər daha çox yazırdıq? Müəllim Azərbaycan dili fənnindən evə çalışma verirdi. Biz çalışmanı həll etmək üçün onu olduğu kimi dəftərə köçürürdük, sonra isə həllini yazırdıq. Ədəbiyyat fənnindən keçdiyimiz dərsləri oxuyandan sonra onun qısa xülasəsi haqqında dəftərimizə yazırdıq. Ümumilikdə isə bütün fənlər üçün dəftər ayırırdıq və o dəftərlərdə tapşırıqları yazırdıq. Yeri gələndə bir neçə səhifəlik tapşırıq yazırdıq ki, bu da xəttimizin daha da təkmilləşməsinə, qorunmasına şərait yaradırdı.

İnşa yazılar, imla, ifadə işləri isə o qədər tez-tez yazılırdı ki, xəttimizin gündən-günə daha da səliqəli olmasına, gözəl görünməsinə şahid olurduq. Və bundan zövq alıb daha çox yazmaq istəyirdik. Beləliklə də xəttimiz "yaşayırdı". Eləcə də əlyazma deyilən bir yazı növünün varlığından söhbət gedə bilirdi.

İndiki təhsil metodu isə yazı yazmağı o dərəcədə azaldıb ki, uşaqların yazı yazmaq qabiliyyəti sadəcə ibtidai siniflərdə qalıb. Müasir məktəblərimizdə nə əvvəlki kimi tapşırıq yerinə yetirilir, nə də əvvəlki qədər inşa, imla, ifadə yazılır. Bu səbəbdən də yeni bir nəsil yetişir: hüsnxətsiz nəsil...

Orta məktəbdə artıq yadırğadığımız yazı yazmaq vərdişi ali məktəblərdə demək olar ki, tamamilə yoxa çıxır. Yadımdadır, dövrümüzdə universitetdə nə qədər mühazirələr yazırdıq. Dəftərlərimizin sayı-hesabı yox idi. Yəni yazmağa da məcbur idik. Çünki sonra oxumaq üçün lazımi mənbə tapa bilmirdik. Hətta diplom işimiz də əlyazma şəklində qəbul olunurdu. Müasir dövrdə bəzi ali təhsil ocaqlarında heç diplom müdafiəsi də yoxdur. Harda qala ki, onu əlyazma şəklində tələb edələr.

Dünya müasirləşdikcə, həyatımızı kompüter, smartfon telefonlar satın aldıqca, əlyazmalar da yoxa çıxır. Mühazirələr də telefonlara yazılır. Tapşırıqlar da kompüterdə yazılıb, çap olunur. Beləliklə, oturub əziyyət çəkməyə, qələmlə mübarizə aparıb saatlarla üzüqoylu yazmağa ehtiyac qalmır. Bizim əvəzimizdən texnologiya yazır. Biz isə yazmaq mədəniyyətindən məhrum oluruq. Bir də baxırıq ki, üstündən uzun illər keçib, bir vərəq yazı belə yazmamışıq. Nəticədə isə nəinki xəttimiz pozulur, yaza bilmirik, üstəlik hərfləri də unudur, sözləri düzgün yaza bilmir, bir sözlə, yazı mədəniyyətindən çox uşaqlaşmış oluruq.

Bizi gələcəkdə hüsnxətsiz insanlarla dolu bir həyat gözləyir. Çünki hazırda gənclərimizin əksəriyyəti yazı yazmaqdan çox uzaqdır. Bəzən qarşılaşdığımız əlyazma nümunələri onların yazmaqda nə qədər çətinlik çəkdiklərini, eləcə də savadsızlıqlarını ortaya qoyur. Bu gün əksər gənclərin sosial şəbəkələrdə yazışmaları adamı dəhşətə gətirir. İllərlə bir vərəq yazı yazmayan bu insanlar artıq necə gəldi, yazmağa başlayıblar. Yersiz ixtisarlar, qısaldılıb məhv edilən sözlər, mübtədası, xəbəri bilinməyən cümlələrə nəzər saldıqda, inanın, heç nə anlamaq olmur. Bütün bunlar isə yazı yazmaqdan illərlə kənarda qalmağın nəticələridir. Əvvəllər orta məktəbi bitirənədək o qədər yazı yazırdıq ki, məktəbi bitirən gənclər ali təhsil aldı, almadı, hamısı mükəmməl yazmaq qabiliyyətinə malik olurdu.

İnsanlar uzun illər yazmadıqlarına görə xətləri də itib-batıb. Məsələn, otuz-qırx adam yazı yazmağa cəlb olunarsa, onların hər birinin xətti uzun illər yazmadıqlarına görə yalnız anlaşılmaz təsir bağışlayacaqdır.

Bir neçə il sonra isə bütün bunların acı nəticələri ilə daha çox rastlaşacağıq. Çünki hələlik orta yaş qrupundan olan insanların yazmaq bacarığı, xətti var. Lakin qarşıda bizi hüsnxətsiz bir gələcək gözləyir. Beləliklə, biz əl yazısını qoruyub saxlaya bilmədik. Onu da digər dəyərlərimiz kimi tarixin arxivinə göndərdik.

***Mətanət Məmmədova***



Elçin Bayramlı

# Su problemini necə həll edə bilərik?

***BMT-nin hesablamalarına görə, dünyanın yarısından çox hissəsi su çatışmazlığından əziyyət çəkir və bu problem 2025-ci ilə qədər 60 faiz artacaq. Dünya əhalisinin 40%-nin yaşadığı 80 ölkə su çatışmazlığı yaşayır. Azərbaycanda da bu sahədə vəziyyət qənaətbəxş deyil və ölkəmiz su stressi altında olan ölkələr qrupuna daxildir.***

Azərbaycan əhalinin sayına və əraziyə nisbətdə su ehtiyatlarının az olduğu ölkələrdəndir. Adambaşına düşən və ərazinin hər kv kilometrinə düşən su ehtiyatına görə Cənubi Qafqazda ən çətin vəziyyət bizdədir. Azərbaycanda ümumi su ehtiyatı 21, Gürcüstanda 63, Ermənistanda 8 kubkilometrdir.

Azərbaycanın su mənbələrinin təxminən 70 faizinin ölkə sərhədlərindən kənarda formalaşır. Qlobal quraqlıq və su problemi kəskinləşəndə ölkə xaricindən gələn su mənbələrindən su götürmək mümkün olmaya bilər. Bu vəziyyətdə qonşu ölkələr transsərhəd çaylardakı su ehtiyatının hamısını özlərinə sərf edəcəklər, bu tərəfə bir qram da su keçməyəcək. Gürcüstan Kürün, Ermənistan Arazın, Rusiya Samurun bütün suyunu özlərinə sərf edəcək. Digər kiçik çayların çoxunun da mənbəyi qonşu ölkələrdədir. Bu çox ciddi strateji təhlükədir. Bu səbəbdən bizim su ehtiyatlarını düzgün idarə etməyimiz həyati dərəcədə vacibdir.

Azərbaycanda su itkisi problemi uzun illərdir ki, davam edir. Biz su itkiləri üzrə dünyada yüksək göstəricilərə malikik. Bu rəqəm 30-35 faiz civarındadır. Yəni, suyun təxminən üçdə biri itirilir. Dünya üzrə qəbul olunmuş norma isə 5–6 faizdir. Bizdə isə bu göstərici normadan 6–7 dəfə yüksəkdir. Bu vəziyyət su təsərrüfatı sistemində idarəetmənin zəifliyi, strategiya planlaşdırmasının olmaması və resursların düzgün bölüşdürülməməsi ilə bağlıdır. Bunlar subyektiv səbəblərdir. Lakin objektiv səbəblər də var. Qlobal istiləşmə, quraqlıq prosesləri yağıntıların, həmçinin çaylarda, göllərdə suyun azalmasına səbəb olur.

Bizdə əsas itkilər suyun ötürülməsi zamanı baş verir, xüsusilə torpaq kanallar vasitəsilə həyata keçirilən suvarma sistemlərində. Azərbaycanda 1,5 milyon hektara yaxın torpağın suvarılmasına imkan verən, uzunluğu 50 min kilometrdən çox olan su kanalları var ki, bunların da 90 faizdən çoxu torpaq kanallardır. Torpaq kanallarla da suyun ötürülməsi böyük su itkisinə yol açır. Belə ki, su bu kanallarda təyinat nöqtəsinə çatanadək əhəmiyyətli bir hissəsi torpağa hopur və buxarlanıb gedir. Bu səbəbdən torpaq kanalların beton və boru kanallara çevrilməsi işlərini artırmağa ehtiyac var.

Bundan əlavə, suvarmada da ciddi su itkisinə yol verilir, belə ki, selləmə suvarmanın geniş yayılması və damcılı çiləmə üsullarının az tətbiqi də su sərfiyyatını artırır. Damcılı və çiləmə üsulu suya 4–5 dəfə qənaət edir, amma sellәmə suvarma 4-5 dəfə daha çox su sərf edir. Yaşıllıqların suvarılması zamanı da ciddi su israfına yol verilir. Bir çox yerlərdə normadan xeyli artıq suvarılma aparıldığını müşahidə edirik. Yeni innovativ texnologiyaların tətbiqi su istifadəsini xeyli azaltmağa imkan verə bilər.

İçməli su sistemində də müəyyən problemlər var. Teztez qəzalar, boruların qırılması və su sızmaları nəticəsində suyun itkisinə yol verilir və əhali içməli su ilə təminatda çətinlik çəkir. Bundan əlavə, suyun israfı da ayrı bir problemdir. Bəzi yerlərdə sayğacların olmaması və su pulunun adambaşına hesabı ilə götürməsi nəticəsində bəzi abonentlər suyu lazım olduğundan dəfələrlə çox istifadə edir və israfa yol verir. Daha bir problem isə, texniki su infrastrukturunun qurulmaması ilə bağlıdır. Nəticədə min bir əziyyətlə gətirilən içməli su sənaye müəssisələri, avtoyuma məntəqələri və sair yerlərdə istifadə olunur.

2030-a qədər Azərbaycanda quraqlıq prosesinin güclənəcəyi proqnoz edilir. Bu səbəbdən suvarma sistemlərinin genişləndirilməsi, yeni su ehtiyatlarının yaradılması və düzgün idarə olunması vacibdir. Əhalinin də qənaətli istifadə etməsi əsasdır. Su həm iqtisadiyyat, həm aqrar sektor, həm də əhalinin birbaşa həyatı üçün həyati vacibdir. Yaxın 3–5 il ərzində bu məsələlərin həlli vacibdir, əks halda gələcəkdə su böhranı ciddi fəsadlara səbəb ola bilər.

# Evliliklər azalır – səbəb işsizlik, evsizlik və internet asılılığı..

"Əslində evlənənlərin sayında olan kəskin azalma və hazırkı statistik göstərici təəcüblü görünməməlidir. Çünki uzun illərdir ki, klassik ailə ənənələrinin yerini müasir, sosial şəbəkələrdə yaranan aldadıcı "sevgi hissi" əvəz edib və internet üzərindən yaranan tanışlıq ən yaxşı halda cəmi bir il çəkir. Çünki bu nigah masasının heç bir mənəvi bağları olmur. Bu gün isə həttda aldadıcı evlilik prosesi də gündəmdən çıxmaq üzrədir. Xüsusilə iş tapmaq çətinliyi, evinin olmaması, digər sosial problemlərin ağırlığı gəncləri nigah masasından uzaqlaşdırır. Günün böyük hissəsini sosial şəbəkələrdə keçirən əksər gənclər ailə məsuliyyətindən, sosial cavabdehlikdən, iqtisadi yüklənmələrdən uzaq olmağa çalışır, ailə ənənələrinin davam etdirilməsində maraqlı görünmürlər." Bu fikirləri SİA-ya açıqlamasında jurnalist-ekspert Mətləb Salahov bildirib. O qeyd edib ki, sosial problemlər, məşğulluq dərdləri, gəlirlərin azlığı evlənmələrin kəskin azalmasına yol açıb.

"Bir amilə diqqət yetirək. Artıq Azərbaycanın əksər bölgələrində işsizlik ucbatından 18-24 yaşlı gənclərin ölkəni tərk edib xarici ölkələrə üz tutması müşahidə olunur. Biz hər gün sosial şəbəkələrdə əksər Avropa ölkələrində muzdla işləməyə gedən yüzlərlə gəncin paylaşımlarını izləyirik. Etiraf edək ki, yerlərdə real və qənaətbəxş gəlir yerlərinin olmaması gəncləri xaricə üz tutmağa məcbur edir. Bu isə onların ailə qurmaq istəklərini də ikinci plana keçirir. Əlbəttə, gənclər iqtisadi baxımdan müstəqil olmaq istəyirlər. Buna görə də çalışırlar ki, öz iqtisadi imkanlarını yaxşılaşdırsınlar, valideynlərindən asılı olmasınlar. Pul qazanmaq dalınca gedən gənclərin isə vaxtında ailə qurmaq imkanları da olmur.Digər səbəb bir çox gənclərin karyera qurmaq, ixtisas sahibi olmaq istəyinin hazırkı zamanda daha qabarıq şəkildə vüsət almasıdır. Xüsusilə karyera zirvəsi üçün çalışan qızlar arasında dünyaya uşaq gətirmək, ana olmaq arzusu da əvvəlki dövrlərdən tam fərqli olaraq bu gün üstünlük təşkil etmir.



*Mətləb Salahov: "İş tapmaq problemi, evsizlik, yaxşı qazancın olmaması gəncləri evlilikdən uzaqlaşdırır"*

Həddindən çox sosiallaşan hazırkı gənc nəslin evliliyə olan münasibəti həm də digər bir qlobal problemi də gündəmə gətirir. Evlilik sayının kəskin azalması həm də ölkəmizdə əhali sayının gələcək illərdə kəskin şəkildə azalması ilə nəticələnəcək ki, bu da Azərbaycan üçün demoqrafik problemin yaranması demək olacaq".

***Afət Tahirqızı***

# Maarifçiliyin beşiyi

***Qədim tarixi olan İrəvan şəhəri tarixən azərbaycanlıların köklü yaşadığı böyük elm, maarif və mədəniyyət mərkəzlərindən biri kimi şöhrət tapmışdır. Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan İrəvan şəhərində doğulub boya-başa çatan yüzlərlə elm, mədəniyyət, incəsənət, din xadimlərinin adları Azərbaycan tarixində yer alıb. Müxtəlif vaxtlarda İrəvanda olmuş səyyahlar, salnaməçilər, tədqiqatçılar İrəvan şəhərini Şərqin inkişaf etmiş elm və mədəniyyət mərkəzi kimi təsvir etmişlər.***



Mənbələrdə göstərilir ki, XIX əsrin əvvəllərində İrəvan xanlığının Rusiya qoşunları tərəfindən işğalından sonra İrəvanın imkanlı və ziyalı elitasının xeyli bir qismi şəhəri tərk etmişdir. XIX əsrin sonlarında bir müddət İrəvanda işləyən görkəmli Azərbaycan ədəbiyyatşünası və maarif xadimi Firudin bəy Köçərli İrəvanı üləmalar, fazillər və şairlər şəhəri adlandırmışdı. İrəvanda maarifçilik tarixi dövrü əhatə edir. Tarixi qədim olan İrəvada 1881-ci il noyabrın 3-də tərkibində iki sinif olmaqla İrəvan Müəllimlər Seminariyasının I sinfinin açılışı olmuşdur. Seminariyanın ilk direktoru Yakob Suşevskinin səyi nəticəsində birinci il seminariyaya 9 müəllim, 42 şagird cəlb edilib. 1882-ci ildə seminariyanın II sinfi, 1883-cü ildə III sinfi açılmışdır. Beləliklə, Qafqazda olan bütün müəllimlər seminariyası kimi, İrəvan müəllimlər seminariyası da 4 sinifdən ibarət olmuşdur. Sənədlərdə qeyd olunur ki, İrəvan Müəllimlər Seminariyasının pedaqoji kontingentinin formalaşmasında əsasən, Qori Müəllimlər Seminariyasının məzunlarından istifadə edilmişdir. Seminariyada müxtəlif fənlər tədris edilməklə yanaşı, bir sıra peşələr – xarratlıq, cildçilik işi, tərəvəzçilik və ipəkçilik fənləri də könüllü olaraq tədris olunurdu. İrəvan Müəllimlər seminariyasının ilk buraxılışı 1884-cü ildə olmuşdur. Həmin il məktəbin 5 nəfər məzunu olmuşdu. Tanınmış simalardan Haşım bəy Vəzirov, Həmid ağa Şahtaxtinski, Tağı bəy Səfiyev, İbadulla Muğanlinski, Şamil Mahmudbəyov, Cabbar Məmmədov və başqaları İrəvan Müəllimlər Seminariyasının məzunları olmuşlar.

### Cənubi Qafqazda maarifçilik hərəkatı

1918-ci ilin mayında İrəvan quberniyasının ərazisində ilk erməni dövləti - Ermənistan Respublikası qurulduqdan sonra İrəvan Müəllimlər Seminariyasının fəaliyyətinə son qoyulmuşdur. İrəvan Müəllimlər Seminariyasının direktoru V.Dobryninin 1918-ci ildə yazdığı hesabatda göstərilir ki, 1915-16-cı tədris ilində seminariyanı 19 nəfər, 1916-17-ci tədris ilində 22 nəfər, sonuncu – 1917-18-ci tədris ilində isə 23 nəfər azərbaycanlı bitirmişdir. Belə bir elm, təhsil və mədəniyyət mərkəzi olan İrəvan tarixi dövründə bir çox ziyalılar nəsli yetirmişdir. Bu nəslin yetişməsində İrəvan Müəllimlər Seminariyasının rolu müstəsnadır. 37 ilə qədər fəaliyyət göstərən bu təhsil ocağı 1918-ci ilin 6 avqustunda İrəvan gimnaziyası və Uluxanlı məktəbi ilə eyni vaxtda bağlanmışdır. İrəvan xanlığı çar Rusiyasının tərkibinə qatıldıqdan sonra burada dünyəvi təhsilə xüsusi diqqət yetirilməsində həmin mühitin özü əhəmiyyətli rol oynamışdır. XIX əsrin ikinci yarısından etibarən Cənubi Qafqazda maarifçilik hərəkatı geniş vüsət alır. Regionda dünyəvi təhsil verən yeni tipli məktəbin – İrəvan Müəllimlər Seminariyasının açılması da məhz bu vaxtlara təsadüf edir. 1881-ci ilin noyabr ayında fəaliyyətə başlayan İrəvan Müəllimlər Seminariyası çar hakimiyyətinin bölgədəki maraqları naminə yaradılmasına baxmayaraq, 40 ilə yaxın müddətdə hazırladığı müasir dünyagörüşünə və düşüncə tərzinə malik yüksəkixtisaslı milli müəllim kadrları ilə azərbaycanlıların üstünlük təşkil etdiyi İrəvan mahalında ədəbi-ictimai, elmi-mədəni həyatın ənənəvi dolğunluğunun və canlılığının qorunub saxlanılmasında təqdirəlayiq xidmətlər göstərmişdir. Görkəmli maarifpərvər Firidun bəy Köçərli seminariyanın ilk müəllimlərindən olmuş, geniş mədəni-maarif işləri aparmışdır. Seminariyanın məzunları sırasında xalqımızın bir çox tanınmış şəxsiyyətləri və dövrünün görkəmli ziyalıları vardır. Bu tədris ocağının Azərbaycanda xalq məktəbi və maarifinin inkişafında müstəsna xidməti olub

### Xalqının mənəviyyat və mədəniyyət mərkəzi

Tarixdən də məlumdur ki, İrəvan, Göyçə, Zəngəzurda min illərlə yaşayan ata-babalarımızın zəngin maddi və mənəvi mədəniyyət nümunələri yaranmışdır. İrəvan şəhəri yarandığı zamandan Azərbaycan xalqının mənəviyyat və mədəniyyət mərkəzinə çevrilmiş və Azərbaycanın dövlətçilik tarixinin ayrılmaz tərkib hissəsi olmuşdur. Soydaşlarımız Qərbi Azərbaycan ərazisində maddi və mənəvi dəyərlərin, təlim-tərbiyə, dövlətçilik ənənələrini yaratmışdılar.

İrəvanda doğulan və İrəvan Müəllimlər Seminariyasının məzunlarından olan Rəşid İsmayılov haqqında söz açacağıq. Tanınmış publisist, tarixşünas-alim və pedaqoq Rəşid bəy Əsəd oğlu İsmayılov 1877-ci ildə İrəvan şəhərində anadan olmuşdur. İrəvan Müəllimlər Seminariyasını bitirmişdir. O, 1903-cü ildə "Şərqi-rus" qəzetində fəaliyyətə başlamışdır. Bununla yanaşı, Qafqazda və Rusiyada çap olunan rusdilli mətbuatda – "Sankt-Peterburqskiye vedomosti" və s. məqalələr dərc etdirmişdir. Rəşid bəy İsmayılov bir il "Tiflisskiy listok" qəzetində çalışmışdır. Dövrün görkəmli şəxsiyyətləri Cəlil Məmmədquluzadə, Məhəmməd ağa Şahtaxtinski, Əhməd bəy Ağayev (Ağaoğlu), Əlimərdan bəy Topçubaşov və başqaları ilə sıx əlaqələri olmuş, onlarla birlikdə fəaliyyət göstərmişdir. "Şərqi-rus" qəzetinin nəşri dayandırıldıqdan sonra "Novoye obozreniye" qəzetinin müsəlman həyatı və Yaxın Şərq şöbələrinə rəhbərlik etmişdir.

Rəşid bəy İsmayılov Azərbaycan Xalq Cümhuriyyəti dövründə Nazirlər Şurasında məsul vəzifədə çalışmışdır. 1919-cu il yanvarın 15-də Bakıda İrəvan quberniyasında yaşayan azərbaycanlıların fövqəladə iclası keçirilmiş və İrəvan quberniyası müsəlmanlarının həmyerlilər Cəmiyyəti təsis edilmişdir. Rəşid bəy İsmayılov bu cəmiyyətin məsul katibi kimi səmərəli fəaliyyət göstərmişdir. Rəşid bəy İsmayılov Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Bakıdakı 18 nömrəli məktəbdə tarix müəllimi işləmişdir. Azərbaycan tarixinin elmi mənbələr əsasında araşdırılması sahəsində A.A.Bakıxanovdan sonra ikinci təşəbbüsü Rəşid bəy İsmayılov göstərmişdir. Onun Azərbaycanın tarixinin qədim dövrlərdən başlayaraq 1920-ci ilin aprelində sovet hakimiyyətinin qurulmasınadək olan dövrünü işıqlandıran "Azərbaycan tarixi" adlı kitabı 1923 ildə Bakıda çap olunmuşdur. Əsərdə "Mavərayi-Qafqazın elani-istiqlalı" bölməsi Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ərəfəsindəki vəziyyətə, "Azərbaycan Cümhuriyyəti" bölməsi isə bilavasitə onun qurulmasına və fəaliyyətinə həsr edilmişdir. Bu kitabda Qafqazın, o cümlədən Azərbaycanın XIX əsr tarixinin bəzi məsələləri öz əksini tapmışdır. Rəşid bəy İsmayılov1941-ci ildə Bakıda vəfat etmişdir.

Rəşid bəy İsmayılovun "Azərbaycan tarixi" əsəri 1993-cü ildə "Azərnəşr" tərəfindən kiril əlifbası ilə yenidən çap edilmişdir. Onun keçdiyi şərəfli yolda azərbaycançılıq məfkurəsi, vətənə məhəbbəti açıq-aydın görünür.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Bir uşaq" siyasəti: Çin öz başına necə corab hördü?

***Çində son illərdə doğum nisbətinin hədsiz aşağı olması Pekin administrasiyası üçün ən böyük narahatlıqlardan biridir. 1979-cu ildən bəri tətbiq olunan sərt "bir uşaq" siyasəti son 10 ildə yumşaldılıb. Lakin, uşaq doğmağı təşviq edən siyasətə baxmayaraq, doğum nisbəti günü-gündən aşağı düşür.***

"Bir uşaq siyasəti" bəlkə də bəşəriyyət tarixindəki ən qəribə demoqrafik siyasətlərdən biri idi. Xüsusilə 2000-ci illərin əvvəllərində, informasiya axınının o qədər də intensiv və sürətli olmadığı bir vaxtda, bu cür qəribə bir qadağanı təəccüblə qarşılayırdı. Çində ötən il ən aşağı doğum nisbəti qeydə alınıb. Bu vəziyyət dünyanın ikinci ən böyük iqtisadiyyatı olan Çin üçün yaxın illərdə ciddi demoqrafik problemə çevrilə bilər. "CNN International"ın məlumatına görə, Çin Milli Statistika Bürosu ötən il ölkədə doğum nisbətinin min nəfərə 5,63 olduğunu müəyyən edib. Bu nisbət hətta 2023-cü ildə qeydə alınan min nəfərə 6,39-dan da aşağıdır ki, bu da bu vaxta qədər qeydə alınan ən aşağı göstəricidir. Görünür, 2016-cı ildən bəri qeydə alınan azalma 2025-ci ildə də davam edib.

Demoqrafik artımda üzü gülməyən ölkənin iqtisadiyyatında mənzərə müsbətdir. İqtisadi hədəflərə çatmasına baxmayaraq, 2016-cı ildən bəri doğum nisbətləri göstərir ki, tək uşaq siyasətinin yumşaldılması vətəndaşları uşaq sahibi olmağa təşviq etməyib. Məlumatlara görə, ötən il Çində 11.310.000 insan ölüb, cəmi 7.920.000 körpə dünyaya gəlib. Bu, əhalinin 3.390.000 azalmasını göstərir.

Çinin dəyişən demoqrafik göstəriciləri Pekin hökuməti tərəfindən ciddi bir problem kimi qəbul edilir; ölkənin işçi qüvvəsi azaldıqca pensiya alan əhali də artır. Artan əhalisini nəzarətdə saxlamaq üçün Çin 1979-cu ildən 2016-cı ilə qədər 37 il ərzində ailələrə yalnız bir uşaq sahibi olmağa icazə verdi. Çin Kommunist Partiyasının rəsmiləri 1978-ci ildəki tədbirlərini şüarla ümumiləşdirdilər: "Bir uşaq daha yaxşıdır, maksimum iki, və bu da üç illik fasilə ilə."

Tək uşaq siyasəti 1980-ci ildə dövlət siyasəti kimi qəbul edilib. Şəhər Ev Təsərrüfatı Sorğusuna görə, 1982-ci ildə böyük şəhərlərdə yaşayan ailələrin 96%-nin yalnız bir uşağı var idi. Tək uşaq siyasətinə əməl etməyənlərə tətbiq edilən cərimələr və sanksiyalar nəticəsində, o dövrdə dünyanın ən çox əhalisi olan ölkəsi olan Çində doğum nisbəti qəfildən yavaşladı və bir anda bu siyasət ciddi demoqrafik problemə çevrildi. Əhali piramidasının tərsinə çevrilməsi səbəbindən Pekin hökuməti 2016-cı ildə tək uşaq siyasətinə son qoydu və ailələrə bəzi hallarda "əhali artımını tarazlaşdırmaq və yaşlanan əhaliyə diqqət çəkmək" üçün iki uşaq sahibi olmağa icazə verdi. Bu addım əhəmiyyətli bir fərq yaratmadı, çünki ölkədə azalan doğum nisbəti bu gün Pekin hökuməti üçün ən



böyük narahatlıqlardan biri olaraq qalır.

Çinin əhalisi 1960-cı illərdən bəri ilk dəfə 2022-ci ildə azalıb. 2023-cü ildə Hindistan ən çox əhalisi olan ölkə olaraq Çini keçib. Çinin əhalisi sürətlə qocalır, bu da əmək qabiliyyətli əhalinin azalması deməkdir. Doğum nisbəti və yeni doğulmuş körpələrin sayı ardıcıl yeddi il azalaraq 2024-cü ildə bir qədər artım müşahidə olunub.

Birləşmiş Millətlər Təşkilatının məlumatlarına görə, 1,4 milyardlıq Çin əhalisi 2100-cü ilə qədər 633 milyona düşəcək. Bu vəziyyət ölkədə "milli təhlükəsizlik" prioriteti kimi qəbul edilir. Çin prezidenti Si Cinpin 2023-cü ildəki çıxışında "Böyük dövlətlərin yüksəlişi və süqutu demoqrafik şəraitdən qaynaqlanır" deyə bildirib və əlavə edib: "Buna görə də demoqrafik təhlükəsizlik milli təhlükəsizlik məsələsi kimi qəbul edilməli və diqqətlə planlaşdırılmalıdır."

Hakimiyyət orqanları son zamanlar "yeni evlilik və valideynlik mədəniyyəti" adlandırdıqları sistemi təşviq edirlər. Həm analar, həm də atalar üçün daha uzun atalıq məzuniyyətindən tutmuş vergi güzəştlərinə qədər bir çox sahədə yeni siyasətlər həyata keçirilir. Yerli hökumətlər evliliyi təşviq etmək üçün kütləvi toylar təşkil edirlər. Evlənənlər artıq evlənmək üçün ailə qeydiyyatlarının yerləşdiyi şəhərə getmək məcburiyyətində deyillər; onlar toy mərasimlərini istədikləri yerdə keçirə bilərlər. Bundan əlavə, hakimiyyət orqanları indi toyları kurortlarda, gecə klublarında və musiqi festivallarında keçirirlər.

Çində hər il hazırlanan Hökumət İş Hesabatında da bu məsələ müzakirə olunub. Hesabatda "uşaq baxımı subsidiyalarının" verilməsi və uşaq baxımı xidmətlərini təkmilləşdirmək ehtiyacı vurğulanıb. Ölkə daxilində 3 yaşdan kiçik hər bir uşağa 3600 yuan (təxminən 515 dollar) yardım etmək üçün dəstək proqramı da təsdiqlənib. Çinin Milli Səhiyyə Təhlükəsizliyi Administrasiyası vətəndaşların doğum xərclərini öz ciblərindən ödəməməsi məsələsinin də həll ediləcəyini deyir. Sözügedən xərclər təbii doğuşlar üçün 5000 yuana (715 dollar), qeysəriyyə doğuşları üçün isə 10000 yuana (1430 dollar) başa gəlir. Hazırda doğuşla bağlı xərclər də daxil olmaqla tibbi xərclərin həm dövlət, həm də vətəndaşlar tərəfindən ödənildiyi bir sistem mövcuddur.

Viskonsin-Madison Universitetinin tədqiqatçısı və "Boş Yuvaları olan Böyük Ölkə" kitabının müəllifi Yi Fuxian, doğum məhsuldarlığın azalmasını nəhəng bir qayanın təpədən yuvarlanmasına bənzədərək, "Doğum nisbətinin azalması qaçılmazdır" deyir. Bildirir ki, bu vəziyyət inkişaf etmiş cəmiyyətlərin nəticəsidir və Asiya, xüsusən də Yaponiya və Cənubi Koreya sürətlə azalan nisbətlərə nümunədir. Yi vurğulayır ki, Çin tək uşaq siyasəti ilə bu prosesi sürətləndirdi. Çin hökumətinin səylərinə baxmayaraq, bu qayanı geri qaytarmaq çətin olacaq.

***Lalə Mehralı***

# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744
7. Bakmətbuat MMC 0502644010

1 nüsxə 1 aylığı 8 AZN
6 aylıq 48 AZN
1 illik 96 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Erkən dil təhsili: üstünlük, yoxsa lazımsız tələskənlik?

*Son illər valideynlər arasında uşaqları çox erkən yaşlardan – hətta 1 yaşından etibarən ingilis dili kurslarına göndərmək tendensiyası sürətlə yayılır. Qloballaşan dünyada xarici dil biliyinin uğurun əsas açarlarından biri hesab edilməsi, valideynləri "nə qədər tez başlasaq, bir o qədər yaxşıdır" düşüncəsinə yönəldir.*



Lakin bu yanaşma cəmiyyətdə birmənalı qarşılanmır: bir tərəf erkən yaşda dilə məruz qalmanın beyin inkişafına müsbət təsir göstərdiyini əsas gətirir, digər tərəf isə ana dilinin formalaşması, psixoloji yüklənmə və erkən akademik təzyiq risklərindən narahatdır. Bu baxımdan uşağı 1 yaşından ingilis dili kursuna göndərmək məsələsi həm elmi, həm tərbiyəvi, həm də sosial aspektlərdən ciddi araşdırma tələb edir. Dünya təcrübəsi ilə Azərbaycan reallığının müqayisəsi isə bu mövzuda daha obyektiv mənzərə yaratmağa imkan verir. SİA mövzu ilə bağlı araşdırma edib.

## Erkən yaşda dil öyrənməyə başlamağın elmi əsasları (dünya üzrə)

**Beynin inkişafı və dil qavrama qabiliyyəti**

Uşaqların beyni erkən yaşlarda xüsusi dərəcədə çevik və qəbul etməyə açıq olur. Elmi tədqiqatlar göstərir ki, dil qavrama qabiliyyəti yaş artdıqca tədricən azalır, yeni dil öyrənmək üçün erkən yaş daha əlverişlidir. Bu tədqiqatlarda uşaqların dünyaya gələndən etibarən dil strukturlarını daha sürətlə mənimsədiyi vurğulanır.

## Bilingvizm və kognitiv üstünlüklər

Erkən yaşda iki və ya daha çox dilə məruz qalmaq uşaqlarda daha yaxşı yaddaş, problem həll etmə, diqqət və fokus kimi kognitiv bacarıqların inkişafına kömək edə bilər. Bundan başqa, ikinci dil bilmək uşaqların mədəni şüuru artıra və gələcəkdə akademik uğura təsir göstərə bilər.

## Daha yüksək səviyyəli dil bacarıqları

Erkən yaşda dilə məruz qalmaq uşaqda tələffüzün daha təbii və düzgün formalaşmasına kömək edir və ikinci dili daha səlis şəkildə əldə etməyə şərait yaradır.

**Uşağın yaşı və dil öyrənmə – nə deyir tədqiqatlar?**

## Sıfırdan erkən yaşdakı öyrənmə

1 yaş uşağı üçün hələ rəsmi kurslar dünyada geniş yayılmasa da, tədqiqatlar göstərir ki, uşaqlar dilə erkən başa düşmə və cavab vermə ilə reaksiya verə bilirlər. Bir beynəlxalq tədqiqat göstərir ki, körpə beyni aldığı dil səslərini doğmadan bəri xəritələndirir və bu erkən təsir daha sonra dil qavrama qabiliyyətini formalaşdırır.

## Kritik dövr nəzəriyyəsi

Dil öyrənmə ilə bağlı nəzəriyyələrdən biri kritik dövr anlayışıdır: bu nəzəriyyəyə görə bəzi dil komponentlərini təbii və asan şəkildə mənimsəmək üçün ən əlverişli dövr early childhood (uşaq erkən dövrü) sayılır. Bu müddət adətən pubertətə qədər davam edir, yi düşünülür — yəni erkən başlamağın faydası uzunmüddətli ola bilər.

## Dünya təcrübəsi: erkən yaşda ingilis dili və iki dillilik

**Qloballaşmış ölkələrdə yanaşma**

Bir çox ölkələrdə valideynlər uşaq bağçalarında, montessori məktəblərində və beynəlxalq məktəblərdə uşaqların iki dillilik qabiliyyəti erkən inkişaf etdirməsinə üstünlük verirlər — bu təhsil yanaşmasına bilingualism (iki dillilik) deyilir.

Şanxay, Britanika Beynəlxalq Məktəbi kimi nümunələrdə erkən iki dillilik uşaqların beynində dilə aid mürəkkəb sinaptik əlaqələr formalaşdırdığı üçün qavrama və sosial bacarıqları gücləndirir.

Avstraliyada valideynlər iki dillilik proqramları vasitəsilə uşaqların həm dil biliklərini, həm də mədəni anlayışını inkişaf etdirirlər. Bu yanaşmalar göstərir ki, dünya üzrə valideynlər erkən yaşda ingilis dilinə məruz qalmanı bir üstünlük hesab edirlər.

## Azərbaycanda vəziyyət və valideyn davranışı

**Rəsmi qaydalar və məşğuliyyət**

Azərbaycanda xarici dillər təhsil sistemi adətən məktəbəqədər dövrdə (bağça və ya ibtidai sinif) başlayır və tədris proqramlarında bu yaşdan ingilis dilinin təhsilinə yer verilir. Lakin 1 yaşdan kurslara göndərmək hələ rəsmi təhsil proqramının bir tərkib hissəsi deyil. Valideynlər isə öz təşəbbüsləri ilə erkən yaşda dilə məruz qalmağı seçirlər — bəzən bağça xaricində əlavə kurslara və ya interaktiv dərslərə yazdırmaqla. Bu cür yanaşma daha çox özəl tədris mərkəzləri və valideyn təşəbbüsü ilə təşkil olunur.

Azərbaycan ekspertlərinin fikirləri

Təhsil ekspertləri və psixoloqlar vurğulayır ki, uşaqların dil inkişafı üçün ana dilinə yetərincə diqqət yetirilməsi vacibdir və xarici dil yalnız anadan yaradıcı oyun və sadə ifadələrlə təqdim olunmalıdır. 3 yaşdan xarici dilin daha məqsədəuyğun başladığına dair fikirlər də mövcuddur.

## Nə üçün bəzi valideynlər uşağı 1 yaşından kursa göndərir?

-Gələcək karyera və qlobal bacarıqlar: İngilis dili dünyada təhsil və iş imkanlarını artırır.

-Kognitiv üstünlüklər: Erkən dillilik uşaqların analitik düşüncə və çoxdillilik qabiliyyətini gücləndirə bilər.

-Dillərə həvəs yaratmaq: Kiçik yaşda başlayan dil tanışlığı uşaqlarda maraq və özünəinam yaradır.

-Müasir təhsil tələbləri: Uşaqlara çoxdilli mühit yaratmaq beynəlxalq standartlara uyğundur.

Uşaqları 1 yaşdan ingilis dili kursuna göndərmək ümumilikdə rəsmi təhsil standartları tərəfindən tələb olunmasa da, valideyn təşəbbüsü, beynin erkən inkişaf xüsusiyyətləri və qlobal dil tələbləri valideynləri belə bir addıma ilhamlandırır. Dünya təcrübəsi göstərir ki, dil məruz qalması erkən yaşlarda effektiv ola bilər, lakin bu, düzgün metodika və ana dilinin inkişafı ilə balanslaşdırılmalıdır.

***Ayşən Vəli***

# Nəhəng brend rəsmən bazardan çəkildi - Artıq telefon istehsal etməyəcəklər

*"Asus" şirkəti 2026-cı il ərzində yeni smartfon təqdim etməyəcəyini açıqlayaraq mobil bazardan çəkildiyini elan edib. Şirkət əsas diqqətini korporativ həllərə və süni intellekt əsaslı texnologiyalara yönəldəcək.*

Milli.Az xəbər verir ki, "Asus" 2026-cı il daxilində heç bir yeni smartfon modeli təqdim etməyəcək.

"Asus" satışda olan mövcud smartfonları üçün texniki xidmət, proqram təminatı yenilənmələri və zəmanət xidmətlərini göstərməyə davam edəcək.

Ayın ilk günlərində ortaya çıxan iddialar artıq dəqiqləşib. "Asus"un İdarə Heyətinin sədri Conni Şih Taybeydə keçirilən xüsusi qala tədbirində markanın 2026-cı ildə yeni telefon modeli təqdim etməyəcəyini rəsmən təsdiqləyib. Şih vurğulayıb ki, bu qərar şirkətin uzunmüddətli strateji transformasiyasının bir hissəsidir.

Şihin açıqlamalarına görə, "Asus" gələcək dövrdə resurslarını və tədqiqat-inkişaf (R&D) yatırımlarını aşağıdakı sahələrə yönəldəcək:

- Korporativ kompüter həlləri;
- Robotik sistemlər;
- Ağıllı eynəklər;
- Fiziki süni intellekt mərkəzli sahələr.

"Asus" hazırda bazarda olan telefonları (məsələn, Zenfone və ROG Phone seriyaları) istifadə edənləri unutmayıb. Şirkət xüsusi olaraq qeyd edib ki, mövcud istifadəçilərin mənfi təsirlənməməsi üçün proqram təminatı dəstəyi və zəmanət xidmətləri planlaşdırılan şəkildə davam etdiriləcək.

***Lalə Qüdrətova***



## ELAN

**Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusu, gizir Abuşov Yusif Heydər oğluna məxsus xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.**


*Baş redaktor:*
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
sesmediaqrup@gmail.com
sesqazeti@gmail.com
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet həftədə iki dəfə nəşr olunur
Tiraj: 2000